Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



**Xəzərdən başlayan səyahət** “Bakı - 2017” IV İslam Həmrəyliyi Oyunları İlidir**.** İslam Həmrəyliyi Oyunlarının keçirilməsinə aid mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı -2017**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Xəzərdən başlayan səyahət:** metodik vəsait / tərt.ed.: N. Məcidova ixt. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-34s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası -2017**

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır. 743-cü ildə tikilən Şamaxı Cümə məscidi və ölkəmizin muzeylərində saxlanılan qədim əlyazmalar bunun bariz nümunəsidir.

Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövrü Azərbaycanında cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Azərbaycan dövlətinin İslam dini dəyərlərinə qayğısı sayəsində son illər ərzində İslam mədəniyyətinin qiymətli abidələrindən Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi əsaslı şəkildə yenidən qurularaq təmir olunmuş, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilmişdir.

Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir.

Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr vermişdir. Azərbaycanın İslam aləmində

qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapmışdır. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İslam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. 2017-ci il Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 yanvar 2017-ci il.

## Giriş:

***Azərbaycan İslam aləmində çox böyük hörmətə malik bir ölkədir. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır. "İslam Həmrəyliyi İli"nin əsas məqsədləri müsəlman aləmində birliyi möhkəmləndirmək, İslamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərməkdir. Hesab edirəm ki, bu ilin mayında Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunları təkcə idman yarışı olmayacaq, eyni zamanda, bütün İslam dünyasının birlik, həmrəylik günləri olacaqdır.***

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Tarixin bütün dövrlərində Azərbaycan dini, milli, mədəni dəyərlərə və müxtəlif dinlərin, millətlərin, mədəniyyətlərin, sivilizasiyaların nümayəndələrinə göstərdiyi münasibətinə görə əsl tolerantlıq nümunəsi nümayiş etdirib. Təsadüfi deyil ki, müxtəlif zaman kəsiklərində işğallara məruz qalan ölkəmiz ən yüksək dini dəyərlərin daşıyıcısı olub. 70 ilə yaxın bir müddətdə ateizmin təbliğ edildiyi, hökm sürdüyü SSRİ mühitində yaşamasına baxmayaraq, humanist dəyərləri yaşadıb. Müstəqillik əldə edildikdən sonra islam ənənələrinə əsaslanan islam bayramlarının keçirilməsi, müxtəlif dinlərin nümayəndələrinə eyni qayğının göstərilməsi ölkəmizdə islamın inkişafına təkan verib. Bu da, dini dəyərlərin yüksək səviyyədə ölkəmizdə qorunmasını göstərir. İslam həmrəyliyi həmdə dünya dinlərinin nümayəndələrinin bir arada yığılaraq birləşməsi, anlaşması deməkdir. Onların fikirlərində bir araya gəlməsi isə dünyada hökm sürən ədalətsizliklərə qarşı bir məlhəm rolu oynayır. Ölkəmiz də 1991-ci ilin dekabr ayından islam dünyasının ayrılmaz hissəsi olan İslam Konfransı Təşkilatına

üzv olmaqla ölkəmizi orada təmsil edir. Bu hadisə beynəlxalq aləmdə respublikamızın inkişafı üçün yeni üfüqlər açaraq, Azərbaycana və ona üzv olan ölkələrin dəstəyini qazandırır.

2017-ci il yanvar sərəncamı ilə İlham Əliyev bu ili "İslam Həmrəyliyi ili" elan edilməsi haqqında sərəncam imzalamışdır. Bu sərəncamda qeyd edildiyi kimi, Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olduğundan, İslam Həmrəyliyi İdman Federasiyası tərəfindən keçirilən çoxmillətli və çoxidmanlı tədbir İslam Həmrəyliyi Oyunları ölkəmizdə keçirilir. İlk Oyunlar 2005-ci ildə Səudiyyə Ərəbistanında keçirildi. Sayca İkinci İslam Həmrəyliyi Oyunlarının ilkin olaraq 2009-cu ilin oktyabrında İranda keçirilməsi nəzərdə tutulsa da, daha sonra tədbir 2010-cu ilin aprel ayına təxirə salınır və sonradan ləğv olunur. Növbəti Oyunlar isə 2013-cü ildə İndoneziyada baş tutur. İslam Həmrəyliyi İdman Federasiyasının səkkizinci seçilmiş Baş Assambleyası Səudiyyə Ərəbistanının Ciddə şəhərində dördüncü İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Azərbaycanda keçirilməsinə qərar vermişdir. İslam Oyunlarının rəmzi olaraq, Azərbaycanın Qarabağ atlarını təcəssüm etdirən, İncə və Cəsur maskotları seçilmişdir. Burada, İncə özündə məlahət və incəlik kimi keyfiyyətləri adət-ənənələri və milli dəyərləri təmsil edir. İncə və Cəsur Azərbaycanın milli sərvəti olan Qarabağ atlarıdır. İncə zəriflik və gözəlliyi, Cəsur isə məharət və mərdliyi təcəssüm etdirirlər. Bu atlar, mükəmməlliyin timsalıdır. Çünki qarşısına qoyduğu məqsədlərə nail olmaq üçün əlindən gələni edir. Mehribanlığı ilə tanınan Cəsur hamıya qarşı dostyana münasibət bəsləyir. Bundan əvvəlki Bakı-2015 Birinci Avropa Oyunları başlamazdan əvvəl məşəl müqəddəs atəşlə alovlandırılmış və ölkənin hər bir guşəsinə oyunların ruhunu və həyəcanını gətirmək üçün bütün ölkə ərazisində daşınmışdır. Bakı 2017 İslam Həmrəyliyi Oyunlarının təşkilində də məqsəd dəyişməzdir. Lakin bu dəfə Səyahət od deyil, İslam dinində su ünsürünə böyük önəm

verildiyindən bu ünsür ilə səyahətə başlamışdır. Su saflıq, təmizlik və şəfa rəmzidir. Möhtəşəm idman tədbirinə ev sahibliyi edən Bakı şəhəri Xəzər dənizinin sahilində yerləşir. Novruz bayramından öncə qeyd etdiyimiz çərşənbələri simvolizə edən dörd ənənəvi ünsürdən (su, torpaq, hava və od) biri də məhz sudur. Vurğulanan bütün məqamlar son dərəcə mühüm əhəmiyyət kəsb etdiyindən, oyunlar ərəfəsində Su ünsürü əsas seçilmişdir. Başlanğıc 5 aprel Bakı şəhəri Xəzər dənizindən olmaqla mərasim aşağıdakı tarixlərdə bu sırada davam edəcəkdir.
7 aprel-Naxçıvan,
9 aprel-Astara,
11 aprel-Şirvan,
13-aprel Sabirabad ,
15 aprel-Ağcabədi,
17 aprel-Horadiz şəhəri, Füzuli,
19 aprel-Gəncə
21 aprel-Şəmkir
23 aprel-Mingəçevir,
25 aprel-Qax,
27 aprel-Qəbələ ,
29 aprel- Qusar, 1mayıllı, Quba,
3 may - Qaradağ,
5 may - Sumqayıt,
12 may Bakı - Açılış mərasimi.

## II İslam Həmrəyliyinin kitabxanada təbliği ilə bağlı keçirilə biləcək tədbirlər

Ta qədimdən nənə və babalarımız öz arzularını, xəyallarını nağıllara hopdurub bu gunkü nəslə ötürüblər. Biz də uşaqlıqdan bu nağıllardan tərbiyə götürmüşük, əxlaq öyrənmişik, mərdlik, igidlik, qoçaqlıq kimi keyfiyyətləri mənimsəmişik. 2017-ci ilin Həmrəylik ili elan edilməsi ilə bağlı ölkəmizdə müxtəlif tədbirlər həyata keçirilir. Kitabxanamız da oyunların keçirilməsində islam ölkələrinin həmrəyliyini, birliyini göstərən müxtəlif tədbirlər keçirir. Milli nağıllarımızı sevdirməklə bərabər müxtəlif islam ölkələri xalqlarının nağılları kitabxanada təbliğ edilir. Bunun üçün nağıl otağında hər bazar günü xidmət şöbəsi tərəfindən nağıl saatı keçirilir. Nağıl saatında müxtəlif xalqların nağılları uşaqlara ucadan oxunur. Həmçinin bu xalqların nağıllarına çəkilmiş cizgi filmləri nümayiş etdirilir və sonra kitabxanaçi cizgi filminin məzmunu ilə bağlı onlara suallar verir. Bu nağıllardan Əfqan xalq nağılı olan "Ədalətli bölgü", "Axmağın dostluğu ilə düşmənin dostluğu eynidir", "Ədalətli hakim", Pakistan xalq nağılı "Xeyirli sövdələşmə", Hersoqavina nağılı "Ölüm hökmü", Fars nağılı "Tülkü və Xoruz", İndoneziya nağılı "Pişik və Meymun balaları", İndoneziya nağılı "Nə üçün ayının quyruğu gödəkdir", Makedoniya nağılı "Çar və dünya gözəli" və b. adlarını çəkə bilərik.

Bundan əlavə *"Milli-mənəvi dəyərlərin əbədiyaşar daşıyıcısı"* adlı nağıl müsabiqəsi keçirə bilərik. Nağıl müsabiqəsində məktəblərə islam ölkələrindən müxtəlif xalqların nağıllarını təqdim edirik. Seçdiyi ölkənin nağılını daha maraqlı şəkildə təqdim edən məktəb sonda kitabxanada təşkil olunmuş tədbirdə münsiflər heyəti tərəfindən mükafatladırılır.

*Gəlin Türkmən nağılı "Saxsı küp" nağılını səhnələşdirək.*

## Saxsı küp

*Türkmən nağılı*

Səhnə nağıla uyğun təşkil olunur. Səhnədə qurulan projektorda nağıl haqqında hazırlanmış çarx səsləndirilir:
Bu əhvalatın olub-olmadığını deyə bilmərik, amma belə danışırlar ki, günlərin bir günü bir kəndlinin balaca, bibər boyda oğlu olur. O, anadan olan kimi danışmağa başlayır. Anası uşağı Yartıqulaq - türkməncə dəvə qulağının yarısı mənasını verən adla adlandırır. Oğlan lap balaca olur.

*Yartının anası əlində həmişə dəvə südündən qatıq qoyuduğu kasa səhnəyə gəlir. Birdən kasa onun əlindən düşüb sınır.* Ana səhnədə çatlamış yeri pincləyərək öz-özünə söylənir:

**Ana:** Oğlum hər cəhətdən yaxşıdır, qəşəngdir, yaraşıqlıdır, bircə boyu balacadır. Bir də ki, əlində heç bir sənəti yoxdur, çatlamış kasanı belə yapışdıra bilmir.

*Səhnədə Türkmən xalq geyiminə uyğun xalat geyinmiş Yartı görünür. Anasının sözlərini eşidib pərt olan Yartı xalatının ətəyini qurşağına keçirdib, aulun lap o başında yaşayan qoca dulusçunun yanına qaçır. Yartı hasarın üstə dırmaşıb qışqırır:*

**Yartı:** Əmi, məni özünə şəyird götur!

*Usta paltarı geymiş qoca ətrafına baxır, amma heç kəsi görmür, öz-özünə deyir:*

**Qoca:** Bu vızıldayan ağcaqanaddır, yoxsa adam?

**Yartı:** Mənəm! - deyə qışqırır.

*Qoca oğlanı görür və gülməyə başlayır.*

**Qoca:** Ay oğul, mən sən boyda cırtdanı özümə necə koməkçi götürüm? Dəzgahdan üstünə bir parça palçıq düşsə əzilərsən, ölərsən.

**Yartı:** Sən məni işdə sına.

*Yartı xahiş edib ustanın yanında şəyird qalır. Səhnədə mahnı oxuya-oxuya şəyirdi ilə mehriban, işləyən qoca iri küplər, Yartı da balaca bardaqlar hazırlayır. Auldakı uşaqların hamısı bardaqlara tamaşa etmək üçün Yartının başına yığılır. Bir gün, qoca həftə ərzində düzəltdiyi küpləri, bardaqları arabaya yığıb, üzünü şəyirdinə tutub deyir:*

**Qoca:** Bu gün bunların hamısını aparıb sataram, acgöz Urban bəyə iyirmi beş təngə borcluyam. Qaytararam, çiynimdən yük götürülər.

*Tək qalan Yartı, emalatxananın gillə suvanmış döşəməsini supürməyə başlayır, birdən həyət qapısı döyülür:*

**Yartı :** Kimdir:?

*Kobud bir səs eşidilir:*

**Tacir**: Tez ol, aç! Mənəm Qurban ağayam!

*Qorxudan Yartı, qapını açmaq əvəzinə, gündə qurumağa qoyulan iri küpün içində gizlənir. Səhnədə tacir paltarında Qurban ağa görünür. O ayağı ilə qapını vurub, nökərləri ilə həyətə girir.*

**Tacir:** Hər nə varsa yığışdırın, uzunqulağa yükləyin! Bu adam mənə borcludur!

*Nökərlər evi başdan-ayağa axtarlar, iki köhnə xalça, kilim və bir də dəzgahdan başqa əllərinə heç nə keçmir. Gələnlər gündə qurumağa qoyulan küp və bardaqları, bardaqlarla birlikdə gizlənmiş Yartını da özləri ilə aparırlar. Onlar qabları tacirin dükanına gətirib divarboyu düzürlər. Çarəsiz qalan Yartı dükanda baş verən hadisələrə qulaq asmağa başlayır.*

**I nökər:** Mən bu gün ağanın gəlirindən altı təngə çırpışdırmışam. Özümə təzə ayaqqabı alacağam.

*II nökər köksünü ötürərək:*

**II nökər:** Mən isə vur-tut üç təngə gizlədə bilmişəm. Bu pullara heç araxçın da almaq olmaz.

*Bu vaxt tacir gəlir. Nökərlər qorxularından bilmirlər, oğurladıqları pulu harda gizlətsinlər.*

**I nökər:** Gəlin pulu ataq bardağın içinə! Əgər ağa pulu bardağın içindən tapsa, elə biləcək ki, qoca dulusçunundur, onda bizdən şübhələnməz. Yartı küpün içindən, yanındakı bardağın içinə pullar töküldüyünü eşidir.Tacir dəftərini açır və borclarını hesablayır.

**Tacir:** Dulusçu Ata yüz... manat borcludu

*Yalanı eşidən Yartı, özünü saxlaya bilməyir, cingiltili səslə küpdən qışqırır:*

**Yartı:** Yalandır! O yüz yox, iyirmi beş !..

*Bu səsdən təəccüblənən tacir dükanda tamam sakitlik olduğunu görür. İyirmi beş! Deyə-deyə Yartı daha da bərkdən bağırır.*

**Tacir:** Ay gədələr! Aparın bu küpü çaya atın! Onun içində sehrbaz cin gizlənib.

**Yartı:** Dayan, taçir! Mən xeyirxah cinəm. İstəsən, səni, dünyanın ən dövlətli adamlarından biri edərəm.

**Tacir:** Nə yolla?

**Yartı:**Mən saxsı qırıntılarını pula çevirə bilərəm. Əgər inanmırsan, yoxla və qabaqdakı bardağı sındır. Mən bir ovsun oxusam, o dəqiqə qırıntılar pula çevrilər. Ancaq yadında saxla, iki dəfədən artıq ovsun oxuya bilmərəm!

*Tacir dəyənəyi qapıb var gücü ilə bardağa sındırır. Saxsı qırıntılarının hərəsi bir tərəfə səpələnir, elə bu vaxt Yartı səsi gəldikcə qışqırır:*

**Yartı:** Saxsım, saxsım, a saxsım,
Pul ol, cibimə axsın.

*Ay can, deyə tacir əlini-əlinə vurub deyir:*

**Tacir:** Bəxtim gətirdi.Gözlə, ay sehrli cin, hələlik ikinci, sonuncu ovsunu oxuma qoy bolluca qırıntı hazırlayım.

*Tacir dəyənəyi yenidən götürüb, bir-birinin ardınca dükandakı qabların hamısını vurub sındırir.*

**Tacir:** Gözlə, cin! hələ hamısını sındırmamışam. İstəyirəm çoxlu pulum olsun.

*Tacir dükanda bir fincan da qoymadı, hamısını qırdı. Yorulub əldən düşən tacir dedi: Ancaq ona heç kəs cavab vermir.*

**Tacir:** Hə, cin, indi daha ovsunu oxuya bilərsən. Bəs hardasan, cin?

*Bu dəfə də ona heç kəs cavab vermədi. Yartının gizləndiyi bardağı da tacir sındırdığından o cəld çıxıb evlərinə tərəf getmişdi. Tacir hələ də qırıntıların üstündə oturub gözləyirdi ki, cin onları qızıla çevirəcək. Nağıl bitir. Sonda zalda oturan uşaqlar tamahkar tacirin halına gülürlər.*

Bu nağılın ucadan oxusunun keçirilməsi kiçikyaşlı uşaqlara uyğun olardı. Nağıl onlara tacirin tamahkarlığı ucbatından necə rəzil olduğunu anlatmış olar.

İkinci nağılımız özbək nağılıdır. Bu nağılın səhnəciyinə tamaşa edək. Projektorda nağıl haqqında məlumat səslənir:

Özbək nağılı olan bu nağılda əhvalatın olub olmadığını deyə bilmərəm ancaq keçmişdə Xarəzmdə Seyfutdin adlı məhşur nağılçı var imiş. Onun şöhrəti, bol sulu çaylar kimi bir ölkədən başqa ölkəyə axıb gedərmiş. Buna görə də çoxları uzaq-uzaq məmləkətlərdən Xarəzmə gələr, onun natiqlik məharətindən həzz alarmışlar. Günlərin bir günü bu nağılçının sorağını dövlətli Buxara tacirlərindən biri eşitdi. O özünə heç şeydən korluq verməzdi, ürəyindən keçəni yerinə yetirərdi. Buxara taciri məhşur Seyfutdinə qulaq asmaq istədi. Ancaq o, alverini başlı-başına buraxıb özü nağılçının dalınca uzaq Xarəzmə yola düşə bilməzdi. Tacir bu məşhur, məharətli söz ustasını yanına dəvət etmək fikrinə düşdü. O, gumüş məcməiyə qiymətli hədiyyələr və pul kisəsi qoyub, karvansaraya yolladı.

*Tacir, dəvə karvanı ilə Xarəzmə yola düşən qoca karvanbaşıya deyir. Karvanbaşı səhnəyə gəlir:*

**Tacir:** Əgər sən mahir söz ustası Seyfutdini yanıma gətirsən,( ağır pul kisəsi və hədiyyələri göstərib) bu hədiyyələri də, pul kisəsini də sənə bəxşiş verəcəyəm.

*Karvanbaşı razıyam deyib gedir. Və bir müddət sonra məşhur Seyfutdini Buxaraya tacirin yanına gətirir.*

**Tacir:** Seyfutdin xahiş edirəm ki, gözəl danışığın və hazırcavablığın ilə könlümüzü açasan.

*Seyfutdin oturub birinci hekayətini danışmağa başlayır.Birinci hekayətə qulaq asan qonaqlar nağılçını çox tərifləyir, ona şərbət kimi şirin sözlər deyirlər. Bundan ruhlanan Seyfutdin ikinci hekayətini nəql edir.*

**Aparıcı:** Gecə keçir, ancaq Seyfutdinin ağzından sözlər bir-birinin ardınca dürr kimi tökülür.Yorulmaq bilməyən Seyfutdin durmadan hey danışırdı, ancaq ən səbirli və dözümlü olanlar səssiz-səmirsiz durub tacirin evini tərk etmişdilər. Ancaq Seyfutdin yorulmadan danışırdı. Təkcə ev sahibi qonağa hörmət etdiyi üçün oturub qalır. O, yorulmaq bilməyən nağılçının qarşısında əyləşib, tez-tez qulaqlarını dartırdı ki, yuxuya getməsin. Bu vaxt onun sədaqətli arvadı Soltan-Bibi pəncərədən boylanır. Arvadını görəndə tacir sevinir, olan-qalan gücünü toplayıb inildəyir:

**Tacir:** Ay Soltan-Bibi, ey vəfalıların vəfalısı! Tez ol, qaç, karvanbaşını yanıma çağır, mənim canımı ölümün pəncəsindən qurtar.

*Qoca karvanbaşı tacirin evinə girəndə zavallı ev sahibi qocanın dizlərini qucaqlayıb fəryad edir:*

**Tacir:** Ay atam, Seyfutdini yanıma gətirdiyin üçün, sənə bir məcməyi hədiyyə, bir kisə qızıl vermişəm. İndi onu burdan aparsan, hər nəyim varsa sənə verməyə hazıram bax, bu evi də, bağı da, dükanı da, bütün dövlətimi də verərəm.

**Aparıcı:** Doğru deyiblər ki, uzunçuluq zəhlə tökər, az danış, duzlu danış. Məşhur söz ustası Seyfutdinə oxşamamaq üçün biz də nağılımızı vaxtında qurtaraq.
Bu nağılımız da oxuculara kamillik zirvəsinin necə gözəl bir zirvə olduğunu aşılayır. Bu zirvəyə isə yalnız kiçik yaşlarımızdan oxuduğumuz nağıllar, kitablar sayəsində çata bilərik.

*Bu nağılın mövzusu ətrafında uşaqlarla sual - cavab keçirə bilərik. Sualları təqdim edirik.*

1)Dinlədiyimiz nağıl hansı ölkənin nağılı idi?
a Ərəb
b **Özbək**
c Türk

2) Tacir məhşur nağılçını niyə evinə gətizdirmişdi?
a **Əylənmək üçün**
b Nağıldan ibrət almaq üçün
c Qızını sevindirmək üçün

3) Tacirin gətizdirdiyi Buxara nağılçısının adı nə idi?
a Karvanbaşı
**b Seyfutdin**
**c** Soltan

4) Taciri nağıla qulaq asmaqdan kim xilas edir?
a) **Yoldaşı Soltan Bibi**
b) Karvanbaşı
c) Qoca

5)Nağıldan hansı nəticə çıxarmaq olar?
a)Tacirin gözəl nağıllardan feyziyab olduğunu
**b)Uzunçuluğun yaxşı bir vərdiş olmadığını**
c)Seyfuttinin gözəl nağılçı olduğunu

Digər nağılımız Tacik nağılı olan *"Əmrə layiq plov"* nağılının səhnəciyidir. Bazar səhnəsi qurulur. Bütün çamaat tacir Nayranşahın kef məclisinə getdiyindən bazar bağlı olur. Satmağa iki kudu gətirən Muşifiqi öz-özünə deyir:

**Müşfiqi** - Eh, cibimdə bir qəpiyim də yoxdur. Yaxşısı budur, mən də qonaqlığa gedim. Malımı satmadımsa da, heç olma qarnımı doyuraram. O, içində kudu olan kisəni qoyub, üst-başının tozunu çırpır, araxçınına bir qırmızı gül sancıb yüyürə-yüyürə özünü qonaqlığa çatdırır. Görür bəyın həyəti adamla doludur. Nayranhşah zərli xalatda, bəylərlə, dövlətlilərlə birgə oturub. Künc-bucaqda da isə kasıblar oturublar.

**Muşifiqi**: Mənim xalatıma burda yer tapılmaz, zərli deyil, bütün yamaq-yamaqdır! Ona görə də gedib kasıblarla bir cərkədə divarın dibində oturum.

*Gedir oturmağa. Bir xeyli gözləyir, axır ki, nökərlər kasanın içində bir-iki quru sümük gətirib onun qabağına qoyurlar. Muşifiqi quru sümüklərə baxır, başını tərpədib, birdən bütün həyət boyu qışqırır:*

**Müşfiqi** - Ay aman, bu nədir başıma gəldi?! Ən yaxın dostum Nayranhşah gör necə kasıblayıb. O, qonşularına quru sümük yedirir! Nə üçün ölmədim, yaxın dostumun bu rüsvayçılığını gördüm.

*Gülüş səsləri eşidilir. Nayranhşah üst-başından cır-cındır yağan adama baxır. Hazırcavab Muşifiqi dərhal tanıyır.*

**Nayranhşah:** Ey kobud çərənçi! Özgəsinin qonaqlığına lağ etməkdənsə, yaxşısı budur özündən de qonaqlarına nə verirsən quru ot şorbası, ya da göl qurbağalarından plov?

*Dövlətlilər bərkdən gülüşürlər.*

**Muşifiqi:** Hörmətli Nayranhşah, mən sənin kimi dövlətli deyiləm, ancaq qonaqlardan heç nəyimi əsirgəmərəm. Mən plovu quru sümüklə yox, ətirli quyruq yağında qızardılmış quzu əti ilə bişirirəm.

*Muşifiqinin cavabı Nayranhşahın xoşuna gəlmir, onun kobud zarafatlarına birdəfəlik son qoymaq istəyir. Ayağa durur, hamı eşitsin deyə bərkdən deyir:*

**Nayranhşah:** Elə isə, möhtərəm səfil, biz günü sabah sənə qonaq gələrik, bişirdiyin dadlı plovdan yeyib ləzzət alarıq. Özümüz də gələrik, dostlarımızı da gətirərik.

*Dövlətlilər bir ağızdan cavab verrilər. Qoca Zərif bəy da hənalı saqqalını didişdirə-didişdirə ciyildəyir:*

**Qoca:** Sabah elə biabır olacaqsan ki, xəcalətindən başını salmağa yer axtaracaqsan. Ancaq Muşifiqi qorxmur. O, dövlətlilərə cəsarətlə deyir:

**Müşfiqi:** Söz ağızdan çıxdı, əməl olunmalıdır. Sabah sizə doyunca elə plov verəcəyəm ki, heç buxara əmirinin özü də bu plovdan yeməyib.

*Sonda Muşifiqi qabdakı sümükləri itlərə atıb, qonaqlara hörmətlə baş əyib gedir.*

Nağılda kasıbın varlıdan nə qədər geniş ürəkli olduğu təbliğ edilir.
Kitabxanada bu il fevral ayının 9-da Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin rəhbəri dok. Əhməd Sami Elaydın qonaq olmasını da xüsusi vurğulamaq lazımdır. Kitabxananın direktoru Şəhla Qəmbərova qonağa kitabxana haqqında məlumat verdikdən sonra kitabxananın yaranma tarixindən, fəaliyyət istiqamətlərindən, Azərbaycan uşaq ədəbiyyatından seçmə nümunələrin ərəb dilinə tərcümə edilərək nəşr olunacağından danışıb. Misir Uşaq Kitabı həftəsinin keçirilməsi, kitabxanada uşaqlar üçün Misir mədəniyyətini əks etdirən sərgilərin təşkili, Misir uşaq nağıllarının və hekayələrinin Azərbaycan dilinə tərcümə olunması, Nağıl saatlarında Misir nağıllarının oxunması və s. həmrəylik bağlarının dahada möhkəmlənməsi üçün bir vasitədir. Həmçinin mərkəzin rəhbəri dok. Əhməd Sami Elaydi Misir uşaq ədəbiyyatından 60 nüsxə kitabı F.Köçərli adına Respublika Uşaq Kitabxanasına hədiyyə etmişdir.
Kitabxanada İslam Həmrəyliyi Oyunları ilə bağlı bir sıra islam ölkələrinin nağıllarının sərgisini də təşkil etmək olar.




ƏN GÖZƏL
NAĞILLAR
Min bir gecə


Uçan nağıllar


YALNIZ EFE
ÖMER SEYFETTİN




eğlendiren öğreten
ninniler


TÜRK xalqlarının
nağılları


İBRAHİM ÜNSAL
TURGUT REİS
DENİZLER HÂKİMİ


eğlendiren öğreten
tekerlemeler


ÜÇ ÖYÜD

**Ədəbi-bədii gecə**

Əsrlər boyu müxtəlif xalqlar bir-biri ilə sıx əlaqədə olub, bir yerdə yaşamışlar. Şüarı birlik, sülh və həmrəylik olan oyunların əsas prinsipləri elə bu birliyi nümayiş etdirməkdir. İslam Həmrəyliyi Oyunlarının şüarına uyğun **"Gücümüz Həmrəylikdədir"** adlı ədəbi-bədii gecə hazırlaya bilərik. Kitabxanada tədbirə hazırlıq işləri görülür. Tədbirin keçiriləcəyi zalda xalqların birliyini göstərən bayraqlardan, nağıl qəhrəmanlarının şəkillərindən istifadə edilir. Oyunlara hazırlığın gedişatı, mahiyyəti haqqında məlumat vermək üşün ədəbi-bədii gecəyə iştirakçılarla yanaşı oyunun təşkilatçılarından, oyunlarda iştirak edən könüllülərdən dəvət edilir.

**Aparıcı:** Salam hörmətli qonaqlar, tədbir iştirakçıları.Sizləri bu tədbirimizdə xoş gördük. Qarşıda bizi möhtəşəm İslam Dövlətlərinin Olimpya Oyunları gözləyir.

**Aparıcı:** Azərbaycan tarixində xalqın inanc salnaməsini əks etdirən bir səhifə mövcuddur. Minilliklərin, əsrlərin sınaqlarında hər zaman xalqımız islam dininə sadiq qalmışdır .

**Aparıcı:** Millət olaraq atəşpərəstliyə, xristianlığa sitayiş etməyimiz inkarolunmaz olsada, hər dövrün hərbi, siyasi durumu bizim bir xalq olaraq inanc ünvanlarımızın dəyişməsinədə təsirsiz qalmamışdır. VIII əsrdə başlayan ərəb yürüşləri bizi İslama yönələndirib. Nəticədə 1300 illik müsəlman mənsubiyyəti xalqın dini mənəvi dəyərlərinə, mənsubluğuna öz təsirini göstərib. Son 25 ildə bir çox istiqamətlərdə örnəklər yaradan ölkəmizdə islamın \ cəmiyyət və dövlət həyatına effektiv təsirini təmin edən, islamı yad təsirlərdən qoruyan bir model formalaşdırılıb. Bu modellə ölkədə məscidlərin sayı 17-dən 2000-ə qədər yüksəlmişdir.

**Aparıcı:** Zamanın sınaqlarından hər zaman üzü ağ çıxan və digər ölkələrin timsalında öz mükəmməlliyini, bənzərsizliyini nümayiş etdirən ölkəmizin din siyasəti bu gün də davam edir.

**Aparıcı:** IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi bir daha ölkəmizdə İslami dəyərlərə necə hörmət edildiyini göstərmək üçün atılan əməli addımlardandır.

**Aparıcı:** Bu il Azərbaycanda Həmrəylik ili ilə bağlı İlham Əliyevin imzaladığı sərəncam bir daha göstərir ki, bizim xalqlarımızı ortaq tarixi mədəniyyət, mütərəqqi fikirlər birləşdirir.

*Oxucular səhnəyə çıxırlar*

**Oxucu:**Ölkəmiz tolerant bir dövlətdir. Burada yaşayan bütün xalqlar bir-birlərinə dayaqdırlar.

**Oxucu:** Ölkəmizdə bütün dinlərin nümayəndələri bir yerdə yaşayır.Öz adət-ənələrini təbliğ edirlər və butun dinlərə eyni qaydada hörmət göstərilir.

**Oxucu:** IV İslam Həmrəyliyi Oyunları ilə bağlı prezidentimiz İlham Əliyevin imzaladığı sərəncama əsasən Bakıda keçiriləcək İslam oyunlarının da şüarı Birlik, Sülh, Hörmət, Mükəmməllik seçilmişdir.

*(Səhnəyə bu seçilmiş rəmzlərdə iştirakçılar gəlir. Mavi rəngli geyimdə Sülh rəmzi , göy rəngli geyimdə Birlik rəmzi, yaşıl geyimdə Hörmət rəmzi, ağ geyimdə Mükəmməllik rəmzi)*

**I (oxucu) Birlik:** Oyunların şüarı ona görə birlik seçilmişdir ki, biz bir komanda kimi bizi ayıran sərhədlər aşıb, və bizi birləşdirən dəyərləri gücləndirmək istəyirik.

**II (oxucu) Sülh:** Mən bir Sülh olaraq harmoniya və sülh naminə bir-birimizi başa düşüb və qiymətləndirdiyimiz üçün oyunların şüarı seçilmişəm.

**III (oxucu) Hörmət:** Mən də hər kəsə hörmətlə yanaşıb və Multikulturalizm dəyərlərini, adət-ənənələri, dini, tarixi abidələrini qoruduğumuz üçün seçilmişəm.

**IV (oxucu) Mükəmməllik**: Biz də hər gördüyümüz işin mükəmməl olması üçün çalışdığımız üçün seçildik.

**Oxucu:** Oyunlar zamanı bizim devizimiz isə belədir:

*Oxucular birlikdə səslənir*

Gücümüz *birlikdə - Gücümüz həmrəylikdədir!*

*Tünzalə Əliyevanın Bakı-2017-il könüllülərinə oxuduğu "Könüllülərin himni "səslənir.*

**Sülh, qardaşlıq, dostluq ilimiz,**

**Aparıcı:** İslam Oyunlarının rəmzi olan, Azərbaycanın Qarabağ atlarını təcəssüm etdirən, İncə və Cəsur maskotları.

**Aparıcı:** İncə zəriflik və gözəlliyi, Cəsur isə məharət və mərdliyi təcəssüm etdirirlər. Mükəmməlliyin timsalı olan bu atlar, qarşılarına qoyduğu məqsədlərə nail olmaq üçün əlindən gələni edirlər. Cəsur isə öz mehribanlığı ilə hamıya qarşı dostyana münasibət bəsləyir.

*Meşə səhnəsi qurulur. Üç qardaş atla ova çıxırlar. Qardaşlar səhnəyə gəlir.Qardaşlardan biri uşaqların ən sevimli nağıl qəhrəmanı Məlikməmməddir.Məlikməmməd gəzə-gəzə bir tacirin dükanının qabağına gəlir.*

**Məlikməmməd:** Məni nökər saxlayarsınız?

**Tacir:** Əlindən nə iş gəlir?

**Məlikməmməd:** Mehtərlik.

**Tacir:** Gəl onda səni mehtər götürüm.

*Məlikməhəmməd yaxşı mehtərlik edir. Ata yaxşı qulluq edir. Məlikməmməd bir gün tacirin evindən getmək istəyir. Düşünür ki necə etsin. At gəlib Məlikməmmədə komək edir.*

**At:** Sən tacirdən icazə al.

*Məlikməmməd tacirdən icazəsini alıb atı ilə yola çıxır. Nağılda yekun olaraq atın hər zaman öz sahibinə sadiq olması, onu yolda qoymadığı nəticəsinə gəlinir.*

İslam həmrəylik oyunları ilə bağlı oxucuları məlumatlandırmaq üçün kitabxanada slayd hazırlanır. Slaydda oyunun keçirilmə tarixi haqqında məlumat, keçirildiyi ölkələr, oyunlarda iştirak edən islam ölkələrindən məlumatlar verilir. Həmçinin 2017-ci il İslam oyunlarının ünsürünun - su seçilməsi, rəmzinin Qarabağ atlarının seçilməsi haqqında məlumat çatdırılır. Eyni zamanda bu atların mübarizlik və cəsurluq rəmzi olduğu açıqlanır.

Bu mövzu ilə bağlı kitabxanada "Nağıl bilicisi müsabiqəsi", "Cırtdana məktub", "Əl yazısı müsabiqəsi"nin keçirilməsi də birliyin, həmrəyliyin təbliğinə xidmət edər. Həmçinin Cırtdanın poçt qutusuna oxucuların öz xətti ilə yazılmış, müxtəlif xalqların nağıl qəhrəmanlarına ünvanlanmış məktublar atması, onların milli nağıl qəhrəmanımız olan Cırtdan vasitəsi ilə digər ölkələrin nağıl qəhrəmanlarının oxuculara tanıdılması bu mövzuda məqsədəuyğundur. 7- 10 yaş arasında uşaqlarla keçirilən bu müsabiqə 4 mərhələdə "Axırıncı nağılın adını kim söyləsə...", "Müəllif nağılları", "Teleqramma", "Sehirli zənbil", yekunu isə "Tap görüm" adı altında keçirilir.

İslam həmrəyliyi oyunları haqqında yuxarı sinif şagirdlərinin məlumatlı olduğunu öyrənmək üçün hazırladığımız sual-cavabı təqdim edirik.

İslam Həmrəyliyi Oyunları neçə dəfə keçirilib?
a – 2
b – 1
c – 3
**d- 4**
Bakıda keçirilən İslam Həmrəyliyi Oyunları neçəncidir?
**a – 4-cü**
b – 6-cı
c – 5-ci
Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarına neçə ölkə qatılacaq?
a - 50
b - 4
**c - 57**
Ünsür olaraq İslam Həmrəyliyi oyunlarına nə seçilib?
a - od
**b - su**
c - hava
Bu oyunların ünsürü olan su ilk olaraq hardan götürülüb ölkə ərazisinə səyahətə başlayıb**?**
a-Göy-göl

**b- Xəzərdən**

c-Arazdan

Oyunda iştirak edən islam ölkələrinin adlarını deyə bilərsinizmi?

☺ ________________________________________________

İslam ölkələrinin nağıl qəhrəmanlarını tanıyırsınızmı?

☺_______________________________________

İslam Həmrəyliyi Oyunlarının rəmzləri necə adlanır?

a-ağıllı,

**b-İncə, Cəsur**

c-Mərd, qoçaq

İncə və Cəsur hansı canlını təmsil edir?

**a-Bu qəhrəmanlar Azərbaycanın milli sərvəti olan Qarabağ atlarını təmsil edir.**

b-Bu qəhrəmanlar nağıllardakı əfsanəvi divlərdir.

c-Bu qəhrəmanlar nağıl qəhrəmanı olan Məlikməmmədi təmsil edir.

İncə oyunun rəmzi seçilməklə özündə hansı keyfiyyətləri birləşdirir?

**a-məlahətlik, incəlik, adət-ənənə və milli dəyərləri**
b-kobudluq**,**
c-qaçağanlıq

Oyunun rəmzi olan Cəsur özündə hansı keyfiyyətləri əks etdirir?

**a mərdlik, məharət, məqsədyönlülük və müstəqillik.**
b- saflıq, təbiilik
c- gözəllik

*Kitabxananın məlumat biblioqrafiya şöbəsi İslam həmrəyliyi oyunları ilə bağlı slayd hazırlayıb, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının saitinə yerləşdirmişdir. Slaydda İslam ölkərinin nağıllarının siyahısı verilmişdir.*

## Nağıllar:

Axmaq ayı: fars nağılı // Möcüzəli ağac: dünya xalqlarının nağılları. – Bakı: Azərbaycan, 2010. - 18 s.Dəniz səyyahı Sindibadın nağılı. – Bakı: Azərbaycan enskilopedioyası, 1996. - 52 s.

Ələddinin sehirli çırağı: nağıl. - Bakı: Altun kitab, 2016. - 23 s.

Əlibaba və qırx quldur. - Bakı: Altun Kitab, 2009 - 23 s.

Kimin yuxusu daha yaxşıdır ?// Qazax və Orta Asiya xalqlarının nağılları. - Bakı: Çaşıoğlu,2009. - 124s.

Mahmud T. Xeyirxah adam: nağıllar. - Bakı:Azərnəşr, 2001

Min bir gecə nağılları. - Çıraq, 2008. - 96.

Sehirli kürk: Qazax xalq nağılı // Möcüzəli xəzinə. - Bakı: Göyərçinin kitabxanası, 2000. - s.9.

## Dini kitablar

Cavanşir C. Dinlər, təriqətlər, peyğəmbərlər. - Bakı: Hədəf nəşrləri, 2013. - 136 s.

Ən gözəl hədiyyə. - Bakı: Xəzər, 2008. - 96 s.

Mənim gözəl dilim. - Bakı: İpəkyolu, 2007. - 128 s.

Rəhimli A. Hikmətli nəsihətlər. III cild. - Bakı: Nərgiz, 2010. - 136 s.

Seyidov S. Mənim dinim İslamdır. - Bakı: Adiloğlu, 2011. - 68 s.

Sübhani A. İslam tarixi. - Bakı: Beynəlxalq Əlhuda nəşriyyatı, 2005. - 315

Turan R. Gül ətirli hekayələr. – Bakı: Xəzər, 2007. – 167 s.

### 2017-ci ilin mayında Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunları haqqında mətbuatda dərc edilmiş məqalələrin ədəbiyyat siyahısı

Abiyev A. Azərbaycanın dünya idmanına daha bir möhtəşəm töhfəsi // Xalq qəzeti. - 2017. - 18 aprel. - S. 9.

Baxşəliyev R. Azərbaycan İslamiada tarixinin ən möhtəşəm yarışını keçirəcək : I Avropa Oyunlarında qazanılan zəngin təcrübə və möhtəşəm qələbələr IV İslam Həmrəyliyi Oyunlarının da uğurla keçiriləcəyinə təminat verir // Azərbaycan. - 2017. - 19 aprel. - S. 1, 4.

Baxşəliyev R. Bakı - 2017 nin biletləri böyük coşqu ilə alınır : IV İslam Həmrəyliyi Oyunlarına 29 gün qalır // Azərbaycan. - 2017. - 13 aprel. - S. 1, 6.

Baxşəliyev R. Dostluğun, qardaşlığın rəmzi : Azərbaycan bu mötəbər idman yarışına ev sahibliyi etməklə siyasi, mənəvi və maddi dividenlər qazanacaq // Azərbaycan. - 2017. - 2 may. - S. 8.

Baxşəliyev R. El şənliyinə çevrilən su səyahəti: azərbaycanın bölgələrində İslamiadanın bayram əhvali-ruhiyyəsi yayılır // Azərbaycan. - 2017. - 29 aprel. - S. 1, 6.

Bakı-2017 : su səyahətinin Qax mərhələsi Ram-rama şəlaləsindən başlayıb // Səs. - 2017. - 26 aprel. - S. 11.

Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının idmançı və ulduz səfirləri müəyyənləşib // Azərbaycan : qəzet. - 2017. - 9 fevral. - S. 7.

Bayramqızı Ə. Müsəlman ölkələrinin atletlərini birləşdirən mötəbər idman hadisəsi // Xalq qəzeti. - 2017. - 6 aprel. - S. 5.

Bayramov O. Boksçular döyüşə hazırdırlar // Xalq qəzeti. - 2017. 4 may. - S. 9.

Bayramov O. Dövlətimizin qayğısına cavab olaraq idmançılarımız möhtəşəm qələbələrə imza atırlar // Xalq qəzeti. - 2017. - 6 aprel. - S. 4.

Bayramov O. Fəxri kürsüyə əsas namizədlərimiz // Xalq qəzeti. - 2017. 4 may. - S. 9.
Bayramov O. İslam həmrəyliyi Oyunları Azərbaycan tarixinə növbəti parlaq səhifə yazacaq // Xalq qəzeti. - 2017. - 4 mart. - S. 3.
Bayramov O. İslam Həmrəyliyi Oyunları yubileylər ilinə xüsusi məna verəcək: IV İslam Həmrəyliyi Oyunlarına 23 gün sonra start veriləcək // Xalq qəzeti. - 2017. - 19 aprel.- S. 4.
Bayramov O. IV İslam Həmrəyliyi Oyunları rekordçu İslamiada olacaq : IV İslam Həmrəyliyi Oyunları Həm də dünyaya sülh, dostluq və əməkdaşlıq mesajıdır // Xalq qəzeti. - 2017. - 9 aprel. - S. 2.
Bayramov O. IV İslam Həmrəyliyi Oyunları: açılışa 100 gün qaldı // Xalq qəzeti. - 2017. - 31 yanvar. - S. 8.
Bayramov V. Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında layiqli yer tutur // Xalq qəzeti. - 2017. - 12 aprel. - S. 4.
Cavadov S. Şirvan sakinləri su səyahətini xoş ovqatla qarşıladılar // Azərbaycan. - 2017. - 12 aprel. - S. 4.
Cəfərli R. İlham Əliyev dünyanı sülhə, İslam ölkələrini isə həmrəyliyə çağırır // Azərbaycan : qəzet. - 2017. - 9 aprel. - S. 1.
Cəfərov E. İslam və idman həmrəyliyinin Azərbaycan nümunəsi : Bakı islamiadalar tarixinin ən mükəmməl yarışına hazırdır // Azərbaycan. - 2017. 25 aprel. - S. 1,6.
Cəfərov E. İslam və idman həmrəyliyinin paytaxtı : İslam Həmrəyliyi ili - 2017 : IV İslam Həmrəyliyi Oyunları // Azərbaycan : qəzet. - 2017. - 2 fevral. - S. 1,5.
Cəfərov E. İslamiada Azərbaycan idmançılarının zəfər meydanına çevriləcək : IV İslam Həmrəyliyi Oyunlarına 21 gün qalır // Azərbaycan. - 2017. - 21 aprel. - S. 1, 6.
Cəfərov E. 12-ci oyunçumuz azarkeşlər olacaq : futbol üzrə milli komandamız İslamiadaya hazırdır // Azərbaycan : qəzet. - 2017. - 5 may. - № 95. - S. 1, 8.

Əläddinqızı N. Paytaxtımız "Bakı-2017" İslam həmrəyliyi Oyunlarının açılışına tam hazırdır // Səs. - 2017. - 26 aprel. - S. 7.
Əliyev A. Qubanın su səyahəti növrağı : IV İslam Həmrəyliyi Oyunları // Azərbaycan. - 2017. - 2 may. - S. 12.
Əliyev A. Sumqayıtın su əfsanəsi: IV İslam Həmrəyliyi Oyunları // Azərbaycan : qəzet. - 2017. - 6 may. - S. 14.
Əliyev S. Xəzərdən başlayan su səyahətinin növbəti dayanacağı şəmkir oldu: IV İslam Həmrəyliyi Oyunları // Azərbaycan. - 2017. - 22 aprel. - S. 8.
Əliyev S. Yolumuz su kimi aydın, niyyətimiz su kimi təmizdir : Xəzərdən başlayan su səyahəti Gəncədə böyük bayram əhvali-ruhiyyəsi yaratdı // Azərbaycan: qəzet. - 2017. - 20 aprel. - S. 8.
Əliyeva İ. Bakı İslam həmrəyliyinin zəfər meydanı olacaq: IV İslam Həmrəyliyi Oyunlarına 31 gün qalır // Azərbaycan. - 2017. - 11 aprel. - S. 1,6.
Əliyeva Y. İslam Həmrəyliyi Oyunları birlik, qardaşlıq və dostluq Oyunları olacaq // İki sahil. - 2017. - 8 aprel. - S. 6.
Hacalıyev E. Bakı - 2017 İslam həmrəyliyinə böyük çağırışdır : IV İslam həmrəyliyi Oyunlarına 27 gün qalır // Azərbaycan : qəzet. - 2017. - 15 aprel. - S. 1, 4.
Hilaloğlu R. Azərbaycanın idman tarixində yeni unudulmaz səhifə açılır // Azərbaycan : qəzet. - 2017. - 5 may. - S. 9.
Hilaloğlu R. İslamiadanın bayram əhvali-ruhiyyəsi Qaradağda // Azərbaycan : qəzet. - 2017. - 4 may. - S. 9.
Hüseynov F. IV İslam Həmrəyliyi Oyunlarına doğru : oyunlar birlik, sülh, hörmət və mükəmməllik ideyalarını təbliğ edəcək // Mədəniyyət. - 2017. - 15 fevral. - S. 8.
Hüseynzadə F. Azərbaycan İslam dəyərlərinə ən yüksək səviyyədə önəm verən ölkələrdən biridir // Palitra. - 2017. - 21 aprel. - S. 5.
Xəzərdən başlayan su səyahəti : aprelin 5-də paytaxtımızdakı Daş Salnamə Muzeyində "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start verilib //

Azərbaycan : qəzet. - 2017. - 6 aprel. - S. 1-3.
IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq yüksək səviyyədə davam edir : prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının təşkili və keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Sərəncam imzalayıb // Səs. - 2017. - 6 aprel. - S. 7.
IV İslam Həmrəyliyi Oyunlarının " Xəzərdən başlayan su səyahəti"nin Naxçıvan mərhələsi başa çatıb // Azərbaycan : qəzet. - 2017. - 8 aprel. - S. 4.
IV İslam Həmrəyliyi Oyunlarının ilk biletləri Azərbaycan Prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təqdim olunub // Respublika. - 2017. - 19 mart. - S. 3.
Kəngərli İ. "Bakı-2017" IV İslam həmrəyliyi Oyunlarının medalları təqdim edilib // Xalq qəzeti. - 2017. - 8 aprel. - S. 3.
Köçərli Y. Həmrəylik ili İslam ölkələrindən gələn turistlərin sayını artıracaq : İslam Həmrəyliyi ili - 2017 : IV İslam Həmrəyliyi Oyunları // Azərbaycan : qəzet. - 2017. - 2 fevral.- S. 5.
Quliyev E. Azərbaycanı dünyaya tanıdan missiya : Mehriban Əliyevanın rəhbərliyi ilə Təşkilat Komitəsi İslam həmrəyliyi Oyunlarının da ən yüksək səviyyədə keçirilməsini təmin edəcək // Azərbaycan. - 2017. - 14 aprel.- S. 1, 5.
Quliyev L. Qarabağda bayram ovqatı : IV İslam Həmrəyliyi Oyunları // Azərbaycan. - 2017. - 16 aprel. - S. 6.
Quliyev L. Nur şəhərində İslamiada bayramı : Ümumislam idman təntənəsi // Azərbaycan. - 2017. 25 aprel. - S. 7.
Qurbanova L. Çingiz Hüseynzadə : IV İslam Həmrəyliyi Oyunları Azərbaycan tarixinə növbəti qələbə kimi daxil olacaq // Xalq qəzeti. - 2017. - 3 may. - S. 9.
Qurbanova L. IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin qüdrətinin və böyük nüfuzunun göstəricisidir // Xalq qəzeti. - 2017. - 7 aprel. - № 71. - S. 3.
Qurbanova L. Pəhləvanlarımız xalqımızın mübariz ruhunu dünyaya bəyan edəcəklər : IV İslam Həmrəyliyi Oyunlarına 29 gün sonra start veriləcək // Xalq qəzeti. - 2017. - 13 aprel. - S. 3.

Mehdiyev A. İslam dünyası ilə böyük görüş : IV İslam Həmrəyliyi Oyunları // Azərbaycan : qəzet. - 2017. - 5 may. - S. 9.
Məhərrəmov A. İslamiadanın Azərbaycan zəfəri // Azərbaycan. - 2017. - 4 may. - . - S. 7.
Mənsimov E. Bakı-2017 İslamiadanın yeni və mükəmməl standartını yaradacaq : IV İslam həmrəyliyi Oyunları // Azərbaycan. - 2017. - 22 aprel. - S. 1, 7.
Mənsimov E. İslamiadanın taclı sarayı : // Azərbaycan. - 2017. - 6 may. - № 96. - S. 1, 13.
Mənsimov E. Könüllülük təşəbbüsü - xeyirxahlıq missiyası : "Bakı - 2015" də tarix yazan könüllülər ordusu "Bakı - 20172yə qürurla hazırlaşır // Azərbaycan : qəzet. - 2017. 26 aprel. - S. 1, 7.
Mətbuat Şurası İslam Həmrəyliyi Oyunları ilə bağlı tədbir keçirilib. // Səs. - 2017. 21 aprel. - S. 7.
Mirələmov H. Yeni İslam intihabı Bakıdan başlayacaq : müsəlman dünyasının uğurlu gələcəyinə, səmimi həmrəyliyinə və mənəvi dirçəlişinə gedən yol Azərbaycan nümunəsindən keçir // Azərbaycan : qəzet. - 2017. - 12 aprel. -  S. 1,3.
Mirzəbəyli İ. Prezident İlham Əliyev : Biz Bakıda bütün dünyaya nümayiş etdirəcəyik ki, İslam aləmi birdir və bizim birliyimiz gücümüzü artırır : IV İslam Həmrəyliyi Oyunlarına 35 gün sonra start veriləcək // Xalq qəzeti. - 2017. - 7 aprel.. - S. 4.
Nəcəfxanlı Ə. IV İslam Həmrəyliyi Oyunlarının "Xəzərdən başlayan su səyahəti"nin Astara mərhələsi başa çatıb // Xalq qəzeti. - 2017. - 11 aprel. - S. 5.
Rəis X. Mədəniyyət ocaqları İslam Həmrəyliyi Oyunlarına hazırdır : Bütün teatrlarda xüsusi proqram olacaq // Kaspi. - 2017. - 27 aprel. - S. 14.
Səlimov Ə. 1 milyard insan Bakını izləyəcək : "Bakı-2017" Azərbaycanın dünyadakı nüfuzunu daha da artıracaq // Azərbaycan. - 2017. - 30 aprel. - S. 1, 4.

Süleymanov T. IV İslma Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi ölkəmiz üçün tarixi hadisədir // Respublika. - 2017. - 30 aprel. - S. 4.
Sülh, birlik və mükəmməllik rəmzi : "Bakı-2017"nin simaları. Qarabağ atları :"İncə" və "Cəsur" // Azərbaycan : qəzet. - 2017. - 23 aprel. - S. 1.
Şərifov H. İslamiada Azərbaycan idmanının növbəti təntənəsi olacaq : IV İslam Həmrəyliyi Oyunları// Azərbaycan : qəzet. - 2017. - 8 aprel. - S. 1, 4.

**Xəzərdən başlayan  səyahət**

**( metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 20
Çapa imzalanmışdır: 05.05.2017
Tirajı:100
Pulsuz